# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmlər seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2025

**Bakı – 2025**

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N.**, **Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

***© Bakı Dövlət Universiteti, 2025***

# AZƏRBAYCANDA KONSTİTUSİYAÇILIĞIN TARİXİ-HÜQUQİ TƏKAMÜLÜNÜN BƏZİ ASPEKTLƏRİ (XX ƏSRİN 50-60-CI İLLƏRİ)

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***
***ORCID ID: 0000-0002-0766-3670***

*Ötən əsrin ikinci yarısından başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsiplərinə – təkpartiyalılığa, Kommunist partiyasının bütün dövlət təsisatları üzərində amirliyinə toxunmadan ictimai təşkilatların, xalq hakimiyyəti orqanlarının fəaliyyətini nisbətən canlandırmaq üçün şərait yaranmışdı. Həmin dövrdə "kommunizm cəmiyyətinə keçid" məfkurəsi kontekstində formalaşan "ümumxalq dövləti" doktrinası özündə həm əvvəlki proletar diktaturası doktrinasının varisliyi kimi, həm də dövlətin sosial fəaliyyətinin və siyasi inkişafın vəzifələrinin yeni anlamı kimi elementləri əks etdirirdi. Vətəndaşların ölkənin siyasi sistemində Sovetlər vasitəsilə təmsilçiliyinin genişləndirilməsi siyasi monizm prinsipinin müəyyən qədər məhdudlaşdırılması ilə əlaqədar idi. Hakimiyyət və idarəetmə təsisatlarının, eləcə də məhkəmə sisteminin təşkili və fəaliyyəti, sosial-mədəni və iqtisadi sferada baş verən çoxsaylı dəyişikliklər konstitusiya qanunvericiliyinin yenilənməsini labüd şəkildə ortaya çıxarırdı. Bu baxımdan məqalənin yazılmasında məqsəd həmin dəyişikliklərin mahiyyətinin üzə çıxarılmasından ibarətdir. Məqalədə tarixi-müqayisəli təhlil metodundan və sistemli, inteqrativ yanaşma üsulundan istifadə etməklə respublikamızda konstitusiyaçılığın inkişafının baxılan tarixi mərhələsində baş verən proseslərə diqqət çəkilir, sosialist münasibətlərinin yeni mərhələyə qədəm qoyduğu bir şəraitdə cəmiyyətin və dövlətin idarəçiliyi ilə bağlı ortaya çıxan yeni yanaşmaların mahiyyəti, vətəndaşların sosial-iqtisadi, siyasi, mədəni hüquqları, bütövlükdə konstitusiya qanunvericiliyinin yeni hüquqi əsasları araşdırılır.*

**Açar sözlər:** sovet konstitusiyaçılığının təkamülü, "ümumxalq dövləti" doktrinası, demokratik mərkəziyyət, konstitusion dəyişikliklər, siyasi monizm, vətəndaş hüquqları, bürokratizm, nomenklatura sistemi, kollektivçilik.

**https://doi.org/10.30546/209300.305.2025.3.08**

XX əsrin 50-ci illərinin əvvəllərində Azərbaycanın da tərkibində olduğu Sovetlər Birliyində ictimai-siyasi, sosial-mədəni və hüquqi həyatında nəhəng quruculuq işləri həyata keçirilirdi. Xalq təsərrüfatının bərpası istiqamətində aparılan geniş miqyaslı işlər sürətləndirilmiş, yeni sənaye sahələrinin yaradıl-

ması və kənd təsərrüfatı sahəsindəki yeniliklər mövcud normativ hüquqi bazanın müvafiq şəkildə təkmilləşdirilməsi ilə müşayiət olunurdu. Sənaye müəssisələri ilə yanaşı, mənzil, mədəni-məişət ocaqları və digər obyektlərin tikintisi, su, avtomobil və hava nəqliyyatının inkişafında xeyli uğurlara nail olunmuşdu. Lakin müvəffəqiyyətlə yanaşı, çoxsaylı mənfi hallar da mövcud idi. "Növbədənkənar" işlər, cəzalandırma qorxusu altında hesabatların kütləvi şəkildə təhrif edilməsi, rəqəmlərin şişirdilməsi geniş miqyas almışdı.

İqtisadi sferada müşahidə olunan inkişaf tendensiyalarının içərisində əvvəlki təsərrüfat strukturlarının – sənaye müəssisələrinin və kolxozların, eləcə də onların əmlak hüquqlarının bərpa edilməsini; ilkin təsərrüfat subyektləri olan müəssisə və kolxozların hüquqlarının genişləndirilməsini; sahəvi idarəetmə sistemindən iqtisadiyyatından ərazi idarəetməsi sisteminə keçidin baş verməsini; təsərrüfat hesablılığının və başlıca istehsalçılar olan müəssisə və kolxozların yerli kooperasiyasının genişləndirilməsini; təsərrüfat funksiyalarının, o cümlədən əmlakla bağlı funksiyaların ictimai təşkilatlara da (məsələn, həmkarlar ittifaqlarına) verilməsini; məcburi tədbirlərin, sankisya və göstərişlərin (məsələn, əvvəllər kolxozlar üçün nəzərdə tutulmuş məcburi tədarüklər haqqında, əmək qaydalarının pozulmasına görə müharibə dövründə müəyyən edilmiş cinayət sanksiyaları və s.) ləğv olunmasını göstərmək olar.

Həmin dövrdə qlobal ictimai inkişafa və tərəqqiyə təkan verə bilcək əməkdaşlıq və çoxtərəflilik institutlarının formalaşdırılmasına, sülh və təhlükəsizliyə, qlobal ticarətin və investisiyaların genişlənməsinə, maliyyə sabitliyinə, miqrasiya proseslərinin düzənlənməsinə və s. çağırışlar edilmiş, bunların reallaşdırılması və təminatı istiqamətində müvafiq beynəlxalq konvensiyalar, müşahidələr qəbul olunmuşdu. Lakin elm və mədəniyyət sahələri, eləcə də iqtisadiyyatın müəyyən sahələri istisna olmaqla, bütün müttəfiq respublikaların, o cümlədən Azərbaycanın xarici siyasət sahəsindəki hüquqları xeyli məhdudlaşdırılmış, yalnız slavyan respublikalarına bu sahədə bəzi səlahiyyətlər verilmişdi.

Əhalinin sosial strukturunda dəyişikliklər baş vermiş, kolxozçu-kəndlilərlə müqayisədə fəhlə təbəqəsi say etibarilə xeyli artmışdı. Elm və təhsilin səviyyəsinin yüksəlməsi, eləcə də mədəni həyatın digər sferalarındakı yeniliklər qulluqçuların kəmiyyət baxımından artmasına, onların, həm də digər təbəqədən olan əhali qruplarının əmək şəraitinin və maddi təminatının yüksəlməsinə gətirib çıxarmışdı. Əmək qabiliyyətini müvəqqəti itirən bütün fəhlə və qulluqçuların sosial sığorta hesabına müavinət almaları, yenidən formalaşdırılan ictimai istehlak fondlarından uşaqların məktəbəqədər tərbiyə müəssisələrində təminatına, məktəblilərin yay pioner düşərgələrində istirahətinin təşkil olunmasına, çoxuşaqlı və tək analara yardım edilməsinə vəsaitlərin ayrılması geniş vüsət almışdı.

Bununla yanaşı, siyasi-hüquqi həyatda insanların cəmiyyətin və dövlətin

idarəçiliyində iştirakını məhdudlaşdıran bir sıra hallara, o cümlədən inzibati-amirlik aparatının güclənməsi, qanunvericiliklə təsbit olunmuş, lakin deklarativ səciyyə daşıyan "demokratik" hüquqların əksəriyyətinin təmin olunmaması və ya onların realizəsi baxımından müvafiq mexanizmlərin işlənib hazırlanmaması, "xalq hakimiyyəti" orqanlarına seçkilərin formal şəkildə, inzibati nəzarət, bəzən də təzyiq şəratitində keçirilməsi hallarına da rast gəlinirdi.

50-ci illərin ortalarında ictimai-siyasi ab-havanın qismən mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi. Mətbuatda keçirilimiş açıq müzakirənin yekununda – 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci il Konstitusiyasına respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi. Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. Respublikanın dövlət bayrağı, dövlət himni, dövlət gerbi haqqında yeni qanunlar qəbul edildi [2, s.443].

Ölkədə yeni kütləvi tədbirlər, islahatlar, partiya və cəmiyyətdə nüfuz qazanmaq məqsədi daşıyan dəyişikliklər başladı. 1956-cı ilin 30 iyununda qəbul edilən "Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında" qərarla stalinizm tənqid olundu, onun təzahürləri göstərildi, lakin şəxsiyyətə pərəstişi törədən səbəblər, mövcud rejim üçün əlverişli olmadığından tam açıqlanmadı. Partokratik inzibati amirlik üsuli-idarəsinin ictimai tərəqqiyə əngəl olan, köhnə siyasi bürokratiya sisteminin ifrat cəhətlərini aradan qaldırmağa cəhdlər edildi. Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olundu. Humanist bir proses olsa da, siyasi kampaniya kimi planlaşdırılan bəraətvermə prosesi repressiyalarda stalinizmi təqsirləndirmək, hakim partiyanı, sovet siyasi sisteminin nüfuzunu qorumaq, ona xalqın inamının itməməsinin qarşısını almaq məqsədi daşıyırdı.

Həmkarlar ittifaqı, komsomol təşkilatları, onların seçkili orqanları yenə partiyanın ciddi nəzarəti altında fəaliyyət göstərirdilər. Həmkarlar ittifaqlarına bir sıra yeni hüquqlar verilmişdi. 1958-ci ildən onlar fəhlə və qulluqçuların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirlərində, təsərrüfat planlarının hazırlanmasında iştirak etmək, idarə rəhbərini dəyişdirmək məsələsini qaldırmaq, əmək mübahisələrinin həllində qəti qərar vermək, əməyin mühafizəsi və sığorta işlərini, 1960-cı ildən isə həm də sanatoriya və istirahət evlərini idarə etmək hüququna malik oldular. Bununla belə yüz minlərlə fəhlə və qulluqçunun üzv olduğu bu təşkilat xalqın mənafeyinin həqiqi müdafiəçisinə çevrilə bilmədi. Respublikada qadınlar şurası, könüllü xalq drujinaları, məhəllə, valideyn komitələri, yoldaşlıq məhkəmələri kimi ictimai təşkilatlar fəaliyyət göstərirdilər. Elmin ayrı-ayrı sahələrinin, təhsilin, səhiyyənin inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdu.

60-cı illərin əvvəllərində partiya daxilində və iqtisadi sistemdə həyata ke-

çirilən islahatların yaratdığı qeyri-stabil şərait cəmiyyətin müxtəlif təbəqələrinin – bürokratiyanın, texnokratların, partiya nomenklaturasının, hərbçilərin belə vəziyyətə qarşı çıxması ilə nəticələndi. 1964-cü ildə Sovetlər birliyinin mərkəzi hakimiyyətinə gələn qruplaşma ideoloji mühafizəkarlığı iqtisadi islahatlarla çulğalaşdırmağa səy göstərdi. 1965-ci ildə xalq təsərrüfatı şuralarının ləğvi və mərkəzi sənaye nazirliklərinin bərpa edilməsi ilə yeni inzibati mərkəzləşmə dövrü başlanır. Bir sıra mərkəzi komitələr – qiymətlər üzrə, təminat üzrə, elm və texnika üzrə dövlət komitələri yaranır. Bununla yanaşı, müəssisələrə müəyyən muxtariyyət də verilir.

Həmin dövrdə formalaşan ümumxalq dövləti doktrinası fəhlə, kəndli və ziyalıların ittifaqına əsaslanan (rəsmi ideologiyanın ifadə etdiyi kimi – X.İ.) sovet cəmiyyətinin daxili sinfi ziddiyyətlərinin aradan qaldırıldığının sübutu olaraq ortaya atılmışdı. Qeyd olunan təbəqələrin siyasi ittifaqı Konstitusiyanın özünün ən yüksək inkişaf səviyyəsinə çatdığını, olduqca geniş sosial özülə malik olduğunu təsdiqləyirdi. Öz narazılığını ifadə etmək və ya konstitusion müddəalara münasibətdə əks fikir ortaya qoymaq iqtidarında olan sosial təbəqələrin olmaması sosial və hüquqi qaydanın siyasi baxımdan təqdir olunması və ümumi həmrəyliyin mövcudluğu görüntüsünü yaradırdı.

Sovet konstitusion-hüquqi doktrinasının ən mühüm amili kimi ortaya atılmış ümumxalq dövləti haqqında tezis ümumən sosializm cəmiyyətinin sosial bazasının mühüm dərəcədə transformasiyasını, müxtəlif siniflər və təbəqələr, həmçinin şəhər və kənd arasında fərqlərin silinməsini ehtiva edirdi. Dövlət idarəçiliyində kollegial və demokratik başlanğıcların genişləndirilməsi və sonradan onun "xalq ictimai özünüidarəetməsi"nə çevrilməsi nəzərdə tutulurdu.

Vətəndaşların siyasi iştirakının Sovetlər sistemi vasitəsilə genişləndirilməsi partiya-dövlətin siyasi monizminin saxlanılması ilə müşahidə olunurdu. Siyasi monizm prinsipinin bir qədər zəifləməsi onunla əlaqədar idi ki, bitərəf vətəndaşların da dövlət vəzifələrinə irəli çəkilməsinə, seçkilərdə isə alternativsiz səsvermənin saxlanılması şərtilə "kommunist və bitərəflərin" vahid blokunun irəli sürülməsinə başlanılmışdı.

Dövlətin fəaliyyətinə partiyanın təsirinin başlıca üsulu kadr məsələləri üzərində onun nəzarətinin mövcudluğu idi. Hələ əvvəlki dövrlərdə *nomenklatura sistemi* yaradılmağa başlamış və partiya dövlətdəki ən mühüm vəzifələrə qulluqçuların təyinatı üzərində nəzarəti öz əlinə almışdı. Nomenklaturaya uyğun olaraq işə qəbulun və işdən çıxarılmanın müvafiq partiya orqanı ilə məsləhətləşmə əsasında aparıldığı vəzifələrin siyahısı müəyyən edilmişdi. Bu siyahıya sonradan seçkili vəzifələr də daxil edilmişdi ki, bu da rəsmən təsbit olunmuş hüquq normalarının açıq-aydın pozulmasının göstəricisi idi. Doğrudur, ilk vaxtlarda Sovetlər Birliyinin coğrafi, milli və təsərrüfat quruluşunun mürəkkəbliyi və savadlı kadrların çatışmazlığı şəraitində nomenklatura sisteminin müsbət tərəfləri də vardı. Həmin sistem dövlət aparatını vahid meyar-

lara tabe edir və demək olar ki, avtomatik olaraq fəaliyyət göstərirdi. Belə vəziyyət isə ekstremal şəraitlərdə İttifaq dövlətinin effektiliyini şərtləndirirdi ki, bu da parlamentli sistemlər üçün qeyri-adi görünə bilərdi. Ekstremal məqamlarda mühüm amillərdən biri də praktikada fəaliyyət göstərən rəhbərlərin yerli hakimiyyət strukturlarından və birbaşa rəhbərlikdən asılı olmaması idi. Bu "müdafiəlilik" müvafiq səlahiyyətləri həyata keçirənləri təşəbbüskarlığa və yaradıcılığa meyləndirirdi. Əsas şərt isə həmin təşəbbüslərin və müstəqil olaraq həll olunan məsələlərin qarşıya qoyulan başlıca məqsədə uyğun olması idi [3, s.177-178].

Nomenklatura sisteminin başlıca qüsuru onun silki təbəqəyə çevrilməsi, klan qruplarının yaranması tendensiyasının müşahidə olunması idi. Həmin qruplar, yəni yerli rəhbərlər və təsərrüfat idarəçiləri partiya orqanlarına təsir etmək imkanlarına malik olduqda, onları ələ aldıqda böyük qüvvəyə çevrilə bilirdilər. Beləliklə də, zaman keçdikcə nomenklatura sistemi istər-istəməz mahiyyət dəyişikliyinə məruz qalmış və dövlətin maraqlarına deyil, özlərinin xüsusi qrup maraqlarına xidmət edən dəstə birliyi sistemini ifadə etməyə başlamışdı. Sovetlər Birliyi çərçivəsində bu ziddiyyət sonadək həll olunmamışdı və sonrakı illərdə İttifaq dövlətində baş verən bütün mənfi proseslər də həmin sistemin fəaliyyətinin nəticəsi idi.

Ümumxalq dövləti doktrinası kollektivçilik və fərdiliyin nisbətinə münasibətdə ənənəvi sovet yanaşmasını saxlayırdı. O, başlıca olaraq kollektivçi xarakteri ehtiva etməklə, dövlətin və cəmiyyətin maraqlarının şəxsiyyətin maraqlarından irəlidə durduğunu təsdiqləyirdi. Konstitusiyanın mətnində təsbit edilmiş şəxsi və siyasi konstitusion hüquq və azadlıqlar nə qanunvericilik səviyyəsində, nə də məhkəmə müdafiəsi səviyyəsində genişləndirilmiş təminatlar mexanizminə malik deyildi.

Həmin dövrdə Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında baş verən bir çox əsaslı dəyişikliklər dövlət aparatının təkmilləşdirilməsini, elmin, təhsilin, mədəni həyatın digər sferalarının, kənd təsərrüfatı və sənayenin müxtəlif sahələrinin daha mütərəqqi üsullarla inkişaf etdirilməsini, yeni texnologiyanın bütün sahələrə tətbiqini, qanunvericiliyin formalaşan yeni ictimai münasibətlər zəminində forma və məzmun etibarilə yeniləşdirilməsini əhatə edirdi. Bütün bunlar isə yeni Konstitusiyanın işlənib hazırlanmasını labüd hala gətirmişdi. İttifaq miqyasında yeni Konstitusiyanın hazırlanması üzrə praktiki fəaliyyətə hələ 1962-ci ildə başlanılmışdı. Bu məqsədlə 25 aprel 1962-ci il tarixdə İttifaqın Ali Soveti 97 nəfərdən ibarət konstitusiya komissiyası da yaradılmış və 1964-cü ilin avqustunda Konstitusiya layihəsi üzərində iş başa çatdırılmışdı. Lakin həmin dövrdə baş verən hadisələr, xüsusən də hakimiyyət dəyişikliyi yeni Konstitusiyanın qəbulunun on ildən artıq müddətə təxirə salınması ilə nəticələnmişdi və əvvəlki Konstitusiyanın mətnində dəyişikliklərin aparılması davam etdirilidi.

Müəyyən qrup dəyişikliklər ölkənin sosial quruluşu, vətəndaş hüquqları ilə bağlı, xüsusən də sosial-iqtisadi xarakterli məsələləri, ikinci qrup dəyişikliklər isə dövlət aparatının yeni zəminlər əsasında yeniləşdirilməsi, idarəetmə və məhkəmə sisteminin dövrün tələblərinə uyğun surətdə qurulması, hüququn müxtəlif sahələrində, ələlxüsus da konstitusiya qanunvericiliyi sahəsində yeni hüquqi əsasların inkişaf etdirilməsi məsələlərini əhatə edirdi ki, bu da mahiyyət etibarilə ümumən sosialist münasibətlərinin yeni mərhələyə keçməsi, cəmiyyət və dövlətin idarəçiliyi ilə bağlı yeni baxışların ortaya çıxması ilə şərtləndirilirdi.

Belə ki, Konstitusiyanın 126-cı maddəsinə 1960-cı ildə edilən dəyişikliyə görə 7 və 6 saatlıq iş günlərinə keçid müəyyən olunmuş və həmin maddədə "səkkiz saatlıq" sözü "yeddi saatlıq" sözü ilə əvəzlənmişdi. Konstitutsiyanın vətəndaşların təhsil hüququnu nəzərdə tutan 128-ci maddəsinə 21 avqust 1956-cı il tarixdə orta məktəblərin yuxarı siniflərində, orta ixtisas və ali məktəblərdə pullu təhsilin ləğv edilməsi ilə bağlı dəyişiklik olunmuşdu. Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 22 mart 1958-ci il tarixli "Ümumi icbari yeddillik təhsil haqqında" fərmanı ilə 7 yaşından 15 yaşınadək yeddi siniflik həcmdə məcburi təhsil almalı idilər. 15 yaşından 18 yaşınadək olan və yeddi illik təhsili başa vurmayan yeniyetmələr yeddi sinif həcmində təhsili bitirənə qədər xüsusi məktəblərdə təhsil almalı idilər. 128-ci maddəyə 1959-cu il martın 29-da edilən dəyişikliklə yeddillik icbari təhsil məcburi səkkizillik təhsillə əvəzləndi [6, s.731-732].

Respublikada ümumi orta təhsilə keçid istiqamətində görülən tədbirlər nəticəsində 60-cı illərin sonu-70-ci illərin əvvəllərində Azərbaycanda 1,5 milyondan artıq şagirdin təhsil aldığı bütün növ təhsil ocaqlarının sayı dörd mini keçmişdi. 50 minə yaxın şagirdin təhsil aldığı 126 texniki peşə məktəbi, 73 mindən artıq tələbəni birləşdirən 78 orta ixtisas məktəbi, 100 minə yaxın tələbənin təhsil aldığı 16 ali məktəb fəaliyyət göstərirdi. 1973-cü il iyulun 19-da vətəndaşların təhsil hüququ ilə bağlı mühüm konstitusion aktın – xalq təhsili haqqında SSR İttifaqı və müttəfiq respublikaların qanunvericilik əsaslarının qəbul edilməsi isə bu sahədə daha mühüm nailiyyətlərin əldə olunmasına gətirib çıxardı.

Konstitusiyanın 122-ci maddəsinə qadınlara Əsas qanunla verilən hüquqların həyata keçirilməsi baxımından çoxuşaqlı və tək anaların dövlət yardımı ilə təmin olunmasını nəzərdə tutan dəyişiklik edildi. ÜİK(b)P-nın adının Sovet İttifaqı Kommunist Partiyasına çevrilməsi ilə əlaqədar Konstitusiyanın vətəndaşların ictimai təşkilatlarda birləşmək hüququnu təsbitləyən 133-cü maddəsinə dəyişikliklər olundu.

5 oktyabr 1950-ci il və 20 dekabr 1954-cü il tarixli yerli zəhmətkeş deputatları sovetlərinə (kənd, qəsəbə və rayon) seçkilər üzrə seçki normaları haqqında Azərbaycanın Ali Soveti Rəyasət heyətinin fərmanları ilə həmin so-

vetlərə deputatların sayının artırılması ilə bağlı Konstitusiyanın 148-ci maddəsinə dəyişikliklər edildi. 1956-cı ilin 29 dekabrında DQMV-nin və Bakı şəhər Sovetinin deputatlarının sayının artırılması ilə əlaqədar seçki normalarında müvafiq dəyişikliklər olundu və həmin dəyişikliklər Konstitusiyanın 76 və 148-ci maddələrində öz inikasını tapdı.

Konstitusiyanın 148-ci maddəsi rayon, şəhər, kənd və qəsəbə sovetlərinə seçkilər üzrə nümayəndəlik normalarını, 76-cı maddəsi isə vilayət Sovetinə seçki normasını nəzərdə tuturdu. Təcrübədə bu nümayəndəlik normaları tez-tez dəyişdirildiyindən (məsələn, 1950, 1954 və 1956-cı illərdə respublika Ali Soveti Rəyasət heyətinin fərmanı müvafiq sovetlərin nümayəndəlik normalarının dəyişdirilməsi ilə əlaqədar Ali Sovetin 1951, 1955 və 1957-ci illərdə keçirilən sessiyalarında konstitusiyanın həmin maddələrinə dəyişikliklər edilmişdi) müvafiq konstitusiya normaları mütəmadi olaraq dəyişikliyə məruz qalırdı. Bu baxımdan 1959-cu il 12 yanvar tarixli qanunla Konstitusiyanın 76-cı və 148-ci maddələrindən nümayəndəliyin konkret normaları çıxarıldı və 148-ci maddəyə uyğun olaraq həmin andan etibarən respublikanın yerli sovetlərinə nümayəndəlik normalarının Azərbaycan SSR-nin vilayət (DQMV), rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetlərinə seçkilər haqqında Əsasnamə ilə müəyyənləşdirilməsi nəzərdə tutuldu. 25 dekabr 1958-ci ildə məhkəmə vasitəsilə seçki hüquqlarından məhrumetmənin ləğvi haqqında qanunun qəbul edilməsindən sonra respublika Konstitusiyasının 142-ci maddəsində seçki hüququnun ümumiliyi haqqında prinsipi müəyyən edən dəyişiklik əks etdirildi.

26 noyabr 1959-cu il tarixində Azərbaycanın Ali Soveti deputatının geri çağırılması barədə və 8 dekabr 1960-cı il tarixində Azərbaycan SSR vilayət (DQMV), rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetlərinin deputatının geri çağırılması haqqında qanunların qəbul edilməsi ilə Konstitusiyanın 150-ci maddəsi daha da konkretləşdirildi. 1972-ci il sentyabrın 20-də zəhmətkeş deputatları sovetlərinin deputatlarının statusu haqqında Qanunun qəbul edilməsindən sonra 11 iyul 1974-cü il tarixdə Azərbaycan Konstitusiyasının 36-cı maddəsinin yeni redaksiyası Azərbaycan Ali Sovetinin deputatının Ali Sovetin (sessiyalararası dövrdə isə Ali Sovetin Rəyasət heyətinin) razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilməsini, həbs olunmasını və ya məhkəmə qaydasında verilməli olan inzibati tənbeh tədbirlərinə məruz qalmasını qadağan edən dəyişikliyi özündə ehtiva etdi [2, s.452-453].

Azərbaycanda xalq məhkəmələrinin seçki qaydasının dəyişdirilməsi ilə bağlı Konstitusiyanın 116-cı maddəsinə müvafiq dəyişiklik və əlavələr olundu. Həmin maddəyə görə xalq hakimlərinin səlahiyyət müddəti beş il (əvvəl üç il idi), xalq iclasçılarının isə iş yeri və ya yaşayış yeri üzrə fəhlə, qulluqçu və kəndlilərin ümumi yığıncağında (hərbçilər – hərbi hissələr üzrə) iki il müddətinə seçilməsi müəyyənləşdirildi.

Konstitusiyanın 139-cu və 140-cı maddələri ümumi hərbi mükəlləfiyyəti, hərbi xidmətin vətəndaşların şərəfli vəzifəsi və vətənin müdafiəsinin hər bir Azərbaycan vətəndaşının müqəddəs borcu olduğu təsbitlənirdi. Bu konstitusion müddəanın tələbləri baxımından müxtəlif vaxtlarda bir sıra hüquqi aktlar qəbul edilmiş və silahlı qüvvələrdə xidmət keçmənin qaydalarında dəyişikliklər edilmişdi. Belə ki, müharibədən sonra silahlı qüvvələrin bir təşkilatda – İttifaqın Silahlı Qüvvələr Nazirliyində birləşdirilməsi qərara alındı. Ordunun adının dəyişdirilməsi ilə bağlı adı çəkilən maddələrdə müvafiq dəyişikliklər aparıldı. 1947-ci ilin iyununda hərbi andın yeni mətni və andı qəbuletmənin yeni qaydası təsdiqləndi.

1960-cı ildə İntizam nizamnaməsi və Daxili xidmət nizamnaməsi, 1963-cü ildə Qarnizon nizamnaməsi və Qarovul xidməti nizamnaməsi təsdiq olundu. 1967-ci il oktyabrın 12-də qəbul edilən "Ümumi əsgəri vəzifə haqqında" Qanun əsgəri vəzifənin ümumiliyi prinsipinin həyata keçirilməsinə yönəldilmişdi və vətəndaşların hərbi vəzifələrini yerinə yetirmələri qaydasına bir sıra yeni müddəalar əlavə etmişdi. Həqiqi hərbi xidmət müddəti donanmada 4 ildən 3 ilə, orduda isə 3 ildən 2 ilə endirildi. Əvvəlki iki çağırış yaşının (19 və 18) əvəzində bir çağırış yaşı – 18 yaş müəyyən edildi. Çağırış yaşının son həddi (27 yaş) bu qanunda öz əksini tapdı.

Vətəndaşların hərbi xidmətə çağırılması və hərbi xidmətdən azad edilməsinin ildə bir dəfə deyil, iki dəfə – may-iyun və noyabr-dekabr aylarında həyata keçirilməsi nəzərdə tutuldu. Bir qədər əvvəl – 1965-ci ildə müəyyən edilmiş qaydaya uyğun olaraq ali məktəblərin gündüz, axşam və qiyabi şöbələrində təhsil alan tələbələrin hamısına çağırışdan möhlət verilirdi. 1967-ci il qanunu isə yalnız gündüz (əyani) şöbədə təhsil alan ali məktəb tələbələrinə təhsillərini davam etdirmək üçün çağırışdan möhlət verilməsini nəzərdə tuturdu. Burada, həmçinin hərbi xidmətə çağırılanlar üçün ailə vəziyyətinə görə güzəştlər genişləndirildi. Çağırışa qədər və çağırış yaşlı gənclər üçün təhsildən və işdən ayrılmamaq şərtilə məcburi ibtidai hərbi hazırlıq keçilməsi müəyyən edildi. Ehtiyatda olan zabitlərin silahlı qüvvələrə çağırılmasının yeni qaydası nəzərdə tutuldu. Qanun sülh şəraitində gənc mütəxəssislərin – ehtiyatda olan zabitlərin 2-3 ilə hərbi xidmətə çağırılmasını müəyyən etmişdi.

1937-ci il Konstitusiyasına edilən ən mühüm dəyişikliklərdən biri də 1956-cı ildə 151-ci maddəyə edilən və Azərbaycanda dövlət dilinin Azərbaycan dili olduğunu təsdiqləyən dəyişiklik idi. Bununla bərabər, respublikada yaşayan bütün milli azlıqlara həm dövlət təsisatlarında, həm də mədəni sferada özlərinin doğma dilindən istifadə və həmin dilin inkişafı üçün təminat verilirdi.

1950-ci il dekabrın 13-də qəbul edilən "Azərbaycan SSR Ali Sovetinə seçkilər haqqında Əsasnamə", 1954-cü il dekabrın 23-də təsdiq olunan "Azərbaycan SSR vilayət, (DQMV), rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetlərinə seçkilər haqqında Əsasnamə", eləcə də sonralar qəbul edil-

miş eyniadlı qanunlar sadalanan orqanlara seçki prosesinin təkmilləşdirməsini nəzərdə tuturdu.

1959-cu il iyunun 15-də “Azərbaycan SSR Ali Sovetinin daimi komissiyaları haqqında Əsasnamə” təsdiq olundu və 1963-cü il martın 29-da Ali Sovetin komissiyalarının seçilməsi haqqında (hər komissiya haqqında ayrılıqda) qərarlar qəbul edildi. Həmin qanunlara görə ali nümayəndəlik orqanının tərkibində 11 daimi komissiya formalaşdırılmışdı ki, bunlar 15 nəfərdən ibarət qanunvericilik mülahizələri, büdcə (1968-ci ildən etibarən plan adlanırdı), sənaye və nəqliyyat üzrə, kənd təsərrüfatı, suvarma və meliorasiya üzrə, tikinti və abadlaşdırma üzrə; 13 nəfərdən ibarət xalq təhsili və mədəniyyət üzrə, səhiyyə, sosial təminat, bədən tərbiyəsi və idman üzrə, ticarət və ictimai iaşə üzrə, xarici işlər üzrə; 11 nəfərdən ibarət mandat, əhaliyə məişət xidməti üzrə komissiyalar idi.

Qanunvericilik mülahizələri komissiyası Ali Sovetin müzakirəsinə verilən qanun layihələrinə əvvəlcədən baxır, bu layihələr barəsində öz rəylərini Ali Sovetə təqdim edir, həmçinin özü qanunvericilik təşəbbüsü ilə qanun layihələri hazırlayır və Azərbaycan SSR qanunlarının və Ali Sovetin qərarlarının düzgün tətbiq edilib-edilməməsini yoxlayırdı. Büdcə komissiyası Azərbaycanın dövlət büdcəsinin layihəsini və dövlət büdcəsinin yerinə yetirilməsi haqqındakı hesabatı, həmçinin maliyyə-büdcə xarakteri daşıyan qanunların layihələrini nəzərdən keçirir və bu məsələlərə dair Ali Sovetin sessiyalarında əlavə məruzə ilə çıxış edirdi. Dövlət aparatının daha da təkmilləşməsi və ucuzlaşdırılması haqqında maliyyə nəzarətini yaxşılaşdırmaq barəsində də bu komissiya öz təklif və tövsiyələrini verirdi. Digər komissiyalar da müvafiq sahələr üzrə öz səlahiyyətləri daxilində qanunla müəyyən edilmiş funksiyaları həyata keçirirdilər. Əvvəlki kimi müəyyən tapşırıqların yerinə yetirilməsi üçün redaksiya, istintaq, təftiş və digər müvəqqəti komissiyaların təşkil edilə bilməsi də nəzərdə tutulurdu [2, s.446].

1966-cı il dekabrın 23-də Azərbaycanın Ali Sovetinə nümayəndəlik norması dəyişdirilərək hər 12500 nəfərə bir deputat müəyyənləşdirilmişdi. Həmin ildə İttifaqın Millətlər Sovetinə müttəfiq respublikalardan nümayəndəlik norması artırılıb, 25 deputatdan 32 deputata çatdırıldı. Nümayəndəlik orqanlarının fəaliyyətində müşahidə olunan çatışmazlıqların böyük bir qismi Ali Sovetin sessiyalarının işinin formallığı ilə bağlı idi və onların fəaliyəti başlıca olaraq respublika büdcəsinin müzakirəsi və təsdiqi, eləcə də Rəyasət heyətinin qəbul etdiyi fərmanların təsdiqlənməsi məsələlərindən kənara çıxmırdı.

Dövlət idarəetmə orqanlarının tərkibi, strukturu və fəaliyyətində mütəmadi olaraq baş verən dəiyişikliklərin içərisində bir sıra ümumittifaq və ittifaq-republika nazirliklərinin birləşdirilməsi və yenilərinin yaradılmasını qeyd etmək olar ki, bunlarla bağlı hər dəfə Konstitusiyanın müvafiq maddələri dəyişikliyə məruz qalırdı.

İttifaqın Nazirlər Soveti tərəfindən 1955-ci il mayın 4-də qəbul edilən qərarla müttəfiq respublikaların Nazirlər Sovetlərinin səlahiyyətlərinə əsaslı tikintinin planlaşdırılması, büdcə, əmək və əmək haqqı, kənd təsərrüfatı, sənaye məhsullarının bütün növlərinin bölüşdürülməsi üzrə bir sıra məsələlərin aid edilməsi nəzərdə tutulurdu. 1965-ci il okyabrın 4-də təsərrüfat və mədəni quruculuq məsələlərinin də müttəfiq respublikaların Nazirlər Sovetlərinin həllinə verilməsi ilə bağlı qərar qəbul olunmuş və beləliklə, Azərbaycanın Nazirlər Sovetinə yuxarıda sadalanan sahələr üzrə yeni hüquqlar verilmişdi. Bu dövrdə planlı başlanğıcların müəssisələrin təsərrüfat muxtarlığı prinsipləri ilə, onların təsərrüfat fəaliyyətinin tənzimlənməsinin dövləti əsaslarının zəiflədilməsi, qiymət və kredit rıçaqlarının tətbiqi ilə uzlaşdırılmasına cəhdlər edilmişdi.

Həmin illərdə siyasi polis müstəqil təşkilata – Dövlət Təhlükəsizliyi Komitəsinə çevrilmiş, həbs düşərgələri Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinin səlahiyyətinə verilmiş, prokurorluq orqanlarının nəzarət funksiyaları gücləndirilmişdi. 1960-cı ildə İttifaqın Daxili İşlər Nazirliyi ləğv olundu və onun funksiyaları respublikaların müvafiq qurumlarına verildi. 1962-ci il sentyabrın 13-də Azərbaycanın Daxili İşlər Nazirliyi İctimai Asayişi Mühafizə Nazirliyi adlandırılsa da, 1968-ci il noyabrın 25-də onun adı yenidən dəyişdirilərək İttifaqın Daxili İşlər Nazirliyinə çevrildi. Həmin il dekabrın 19-da "Xalq nəzarəti orqanları haqqında" Əsasnamə qəbul edildi. Bu qanuna müvafiq olaraq ittifaqda, müttəfiq və muxtar respublikalarda xalq nəzarəti komitələri, vilayət, şəhər və rayonlarda müvafiq komitələr, həmçinin kənd və qəsəbə sovetləri yanında, müəssisə, kolxoz, idarə, təşkilat və hərbi hissələrdə xalq nəzarəti qrupları və postları yaradılırdı.

Hüquqi cəhətdən bəzi məsələlərin daha yüksək səviyyədə həll olunması üçün Nazirlər Soveti yanında Hüquq Komissiyası Azərbaycan Nazirlər Sovetinin Hüquq komissiyasına çevrildi. Respublikada idarəetmənin müxtəlif sahələri üzrə baş verən və yuxarıda qeyd olunan struktur dəyişiklikləri ilə əlaqədar Azərbaycanın 1937-ci il Konstitusiyasının 48-ci və 55-ci maddələrinə çoxsaylı dəyişikliklər edilmişdi.

50-ci illərdə məhkəmələrlə bağlı bir sıra struktur və fəaliyyət dəyişiklikləri baş verdi. Belə ki, dəmiryol nəqliyyatı və su hövzəsi məhkəmələri birləşdirilərək vahid nəqliyyat məhkəmələri təşkil edildi. Azərbaycanın və Naxçıvanın Ali məhkəmələrinin tərkibində rəyasət heyətləri yaradıldı və onlara müvafiq məhkəmələrin sədrləri və prokurorların protestləri üzrə hökmlərin, qətnamələrin və kassasiya qərarlarının nəzarət qaydasında yenidən baxılması hüququ verildi. 1957-ci ildə xüsusi nəqliyyat məhkəmələri ləğv olunaraq onların aidiyyətində olan işlər ümumi məhkəmə instansiyalarına verildi. Həmin ilin fevralın 12-də İttifaqın Ali Məhkəməsi haqqında verilən Əsasnaməyə uyğun olaraq həmin məhkəmənin nəzarət qaydasında işlərə baxılması üzrə funksiyası xeyli məhdudlaşdırıldı və müttəfiq respublika ali məhkəmələrinin məh-

kəmə fəaliyyətinə nəzarət sahəsində rolu artırıldı.

1958-ci ildə qəbul edilən “SSR İttifaqı, müttəfiq və muxtar respublikaların məhkəmə quruluşu haqqında qanunvericiliyin Əsasları”na uyğun olaraq Azərbaycanın Ali Soveti tərəfindən 1960-cı ilin 8 dekabrında “Azərbaycan SSR məhkəmə quruluşu haqqında” Qanun qəbul edildi. Qanunda ədalət mühakiməsinin həyata keçirilməsi prinsipləri, vahid rayon və şəhər məhkəməsinin təşkili, xalq hakimlərinin vəkalət müddətinin 3 il əvəzinə 5 ilədək artırılması, məhkəmələrin xalq iclasçılarının iş və yaxud yaşayış yeri üzrə fəhlə, qulluqçu və kəndlilərin ümumi yığıncaqlarında, əsgəri hissələrdə isə hərbi qulluqçuların yığıncaqlarında açıq səsvermə yolu ilə 2 il müddətinə seçilməsi, bütün məhkəmələrdə cinayət və mülki işlərə kollegial baxılması müəyyən edilirdi. Ali Məhkəmənin Plenumu və Rəyasət heyətinin yaradılması, xalq məhkəmələrinin seçicilər qarşısında, yuxarı məhkəmələrin isə müvafiq sovetlər (sessiyalararası dövrdə onların rəyasət heyətləri) qarşısında müntəzəm hesabat vermələri nəzərdə tutulurdu [2, s.478].

Pespublika məhkəmələrinin hakimlərinin və xalq iclasçılarının vaxtından əvvəl geri çağırılması, hakimlərin intizam məsuliyyəti ilə bağlı yeni qanunların qəbulu məhkəmə hakimlərinin öz işlərinə və yerinə yetirdikləri funksiyalara daha məsuliyyətlə yanaşmaları və qanunun keşiyində daha inamla durmalarına xidmət edirdi.

Həmin dövrdə Azərbaycanda respublika Ali Məhkəməsi ilə yanaşı, 1 muxtar respublika Ali Məhkəməsi, 1 vilayət məhkəməsi, 5 şəhər və 51 rayon xalq məhkəmələri yaradılmışdı. Rayon (şəhər) xalq məhkəmələrinin formalaşdırılması həm məhkəmə quruluşu haqqında qanuna, həm də respublika rayon (şəhər) xalq məhkəmələrinin seçkisi haqqında 29 oktyabr 1960-cı il tarixli Əsasnaməyə müvafiq surətdə həyata keçirilmişdi. Qanuna uyğun olaraq respublikanın yuxarı məhkəmələrində birinci instansiya məhkəməsi kimi baxılmalı olan işlərdən başqa qalan bütün cinayət və mülki işlərə rayon (şəhər) məhkəmələrində baxılırdı.

60-cı illərdə qəbul olunmuş silsilə qanunlarla respublika vətəndaşlarının həm qanunçuluğun və hüquq qaydasının pozulmasına qarşı mübarizədə, həm də ədalət mühakiməsinin həyata keçirilməsində iştirakının daha da fəallaşdırılması məqsədi güdülürdü. Belə ki, yoldaşlıq məhkəmələrinin yaradılması və onlara əmək intizamının pozulması, əxlaqa uyğun gəlməyən, eləcə də birinci dəfə baş verən xırda xuliqanlıq, dövlət əmlakının və ya ictimai əmlakın az miqdarda oğurlanması, vətəndaşların şəxsi mülkiyyətində olan az qiymətli istehlak və məişət şeylərinin birinci dəfə oğurlanması, səhhətin pozulması ilə nəticələnməyən adam döymək, bədənə yüngül xəsarət yetirmək və sair haqqında milis, prokurorluq və məhkəmə orqanlarından daxil olan işlərə baxmaq hüququnun verilməsi; xalq iclasçısı, ictimai ittihamçı və ictimai müdafiəçi qismində məhkəmədə öz vəzifələrini icra etmələri ilə əlaqadar fəhlə və qul-

luqçulara xərclərin ödənilməsi, məhkəmədə bu vəzifələri icra etdikləri müddətdə onların əsas iş yerində əmək haqqının saxlanılması həmin məqsədlərə xidmət edirdi [3, s.198].

1955-ci ildə qəbul edilən prokuror nəzarəti haqqında yeni əsasnamə ilə vahid qanunçuluq prinsipi ilə yanaşı, prokurorluq orqanlarının yalnız Baş prokurora iyerarxik tabeçiliyi prinsipi də təsbit edildi. Əvvəlki Əsasnamədən fərqli olaraq, bu qanun həm prokurorluğun mərkəzi orqanlarının, həm də yerli prokurorluqların fəaliyyətini tənzimləmiş oldu. Prokurorluğun əsas vəzifə və funksiyaları konkretləşdirildi. Azərbaycan prokurorunu, Naxçıvan və DQMV-nin prokurorlarını SSRİ Baş prokuroru beş il müddətinə təyin edirdi. Azərbaycan prokurorunun təqdimatı ilə respublika prokurorunun müavinləri, şöbə rəisləri, mühüm işlər üzrə müstəntiqləri, Naxçıvan MSSR və DQMV prokurorlarının müavinləri, Bakı şəhər prokuroru İttifaqın Baş Prokuroru tərəfindən təyin edilirdi. Rayon və şəhər prokurorlarını isə respublika prokuroru SSRİ Baş prokurorunun təsdiqi ilə beş il müddətinə təyin edirdi. Respublika prokurorluğunun bütün digər işçiləri isə Azərbaycan prokuroru tərəfindən təyin edilirdi.

Prokurorluq orqanlarının təşkilindəki digər dəyişiklik 1960-cı ildə nəqliyyat prokurorluğunun ləğv edilməsi və onların funksiyalarının müttəfiq respublikaların prokurorluq orqanlarına verilməsi oldu. 1966-cı ildə hərbi prokurorluq haqqında yeni Əsasnamə təsdiq edildi. İstintaq aparatının fəaliyyətinin yaxşılaşdırılması məqsədilə 1966-cı ilin dekabrında müvafiq qərar qəbul olundu. Qərar istintaq üzərində prokuror nəzarətinin gücləndirilməsini, müstəntiqlərin ixtisas hazırlığının daha da təkmilləşdirilməsini, onların elmi-texniki vasitələri daha geniş tətbiq etmələrini tələb edirdi.

Ümumilikdə məhkəmə və prokurorluq sahəsindəki yeniliklər Ali Məhkəmənin və prokurorluğun nəzarət hüquqlarının genişləndirilməsini, ixtisaslaşdırılmış məhkəmələrin və prokurorluqların (hərbi, nəqliyyat və s.) şəbəkəsinin daraldılmasını və siyasi motivlər üzrə məhkum olunmuş şəxslərin reabilitasiyasının və amnistiyaların həyata keçirilməsini əhatə edirdi.

Baxılan dövrdə konstitusion normaların hüququn və qanunvericiliyin inkişafına təsiri nəticəsində yeni dövrün tələblərinə uyğun olaraq hüququn ayrı-ayrı sahələrinin inkişafı baxımından çoxsaylı qanun və qərarlar qəbul edilmiş, yeni məcəlləşdirmə işləri aparılmışdı. Sovetlər Birliyinin bir sıra beynəlxalq konvensiyalara qoşulması, xüsusən də 1968-ci ildə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq müqaviləni imzalaması konstitusion-hüquqi normaların, eləcə də hüququn ayrı-ayrı sahələrinin müvafiq müddəalarının beynəlxalq normalarla uyğunluğunun təmin edilməsi istiqamətində işlər aparıldı. Belə ki, həmin beynəlxalq aktda insan hüquqlarının geniş dairəsi təsbitlənirdi ki, bu da həmin akta qoşulan iştirakçı-dövlətlər tərəfindən nəzərə alınmalı idi. Məsələn, Sovetlər Birliyində əvvəllər əmək hüquq kimi deyil, mükəlləfiyyət qismində təsbitləndiyi halda, burada əmək hüquq kimi ifadə

olunurdu. Bu baxımdan da sonradan qəbul edilən Konstitusiyada ilk dəfə olaraq İttifaqın Əsas Qanunu beynəlxalq hüququn hamılıqla tanınan bu müddəasını, yəni əmək hüququnu təsbitləmiş oldu.

Həmin dövrdə müxtəlif qanunvericilik aktlarına, o cümlədən də fəaliyyətdə olan məcəlləşdirilmiş aktlara bir sıra dəyişiklik və əlavələr olunmuşdu. Qanun layihələri respublika Ali Sovetinin qanunvericilik mülahizələri komissiyası və digər komissiyaları tərəfindən hazırlanırdı. Layihələrin hazırlanmasında Ali Sovetin hüquq şöbəsi, respublika Ali Məhkəməsi və prokurorluğu, nazirliklər və mərkəzi idarələr, bəzi elmi idarələr iştirak edirdilər. 1970-ci ilə qədər bu işdə Nazirlər Sovetinin yanındakı hüquq komissiyası da iştirak edirdi. Müxtəlif məsələlərlə bağlı partiyanın MK və hökumətin birgə qərarları da hüququn ayrı-ayrı sahələrinin yeniləşdirilməsinə istiqamətlənmişdi. Yerli sovetlər də qanunla onlara verilən səlahiyyətlər çərçivəsində müvafiq ərazidə yerinə yetirilməsi məcburi olan qərarlar qəbul etmək, onların daimi komissiyaları müvafiq dövlət və ictimai orqanlar, müəssisə, idarə və təşkilatlar tərəfindən baxılması məcburi olan tövsiyələr vermək, müvafiq sovetlərin icraiyyə komitələri isə öz səlahiyyət hüdudları daxilində qərarlar qəbul etmək və sərəncamlar vermək hüquqlarına malik idilər.

Bu dövrün hüququnu səciyyələndirən xüsusiyyətlərdən biri də hakimiyyət təsisatlarının demokratikləşdirməsi, funksiyalarının genişləndirilməsi istiqamətində onların normativ hüquqi modelinin ümumi tərəqqisi ilə yeni qanunları təqdir edən, amma həyata keçirməyən real praktika arasında kəskin ziddiyyətin mövcudluğunda özünü büruzə verirdi. “Arzu olunan və gerçəklikdə olan” arasındakı ziddiyyətlər hakimiyyət təsisatlarının təşkili və fəaliyyətini tənzimləyən qanunvericiliyin inkişaf istiqamətlərinin xarakterində özünü daha aydın göstərirdi. Həmin istiqamətlərin əsas məzmunundan hasil olurdu ki, hüquq burada ideoloji təbliğatın heç də adekvat olmayan genişləndirilmiş funksiyasına malik idi. Özü də bu funksiyanın genişləndirilməsi əksər hallarda daha vacib funksiyada – hüququn nizamlayıcı funksiyasında öz mənfi təsirini göstərirdi. Sonuncu funksiyasının normal şəkildə həyata keçirilməsinin qeyri-mümkünlüyü və ümumiyyətlə, hər hansı normativ tənzimləmədə ontoloji tələbat müxtəlif qurumların fəaliyyətinin hüquqi nizamlanmasının təkamülünün digər istiqaməti üçün bir səbəbə çevrilirdi. Belə ki, qanunvericilikdə hakimiyyət təsisatlarına gerçək səlahiyyət təsiri vasitələrini verə bilməyən qeyri-müəyyənliklərin getdikcə çoxalması real olaraq normativ nizamlanma funksiyasını yerinə yetirən qanun qüvvəli normativ hüquqi aktların həcminin artmasına gətirib çıxarmışdı. Bu aktların əksəriyyəti ali hakimiyyət orqanı qarşısında hesabatlı olan rəyasət heyətləri, eləcə də digər ali icraedici və sərəncamverici funksiyanı yerinə yetirən orqanlar tərəfindən qəbul olunurdu ki, bu da faktiki olaraq demokratik mərkəziyyət prinsipinin bürokratizmlə əvəzlənməsi demək idi [3, s.201-202].

50-ci illərin sonu – 60-cı illərin əvvəllərində hüququn yeniləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsinə başlandı və bu tədbirlərin önündə müxtəlif hüquq sahələri üzrə yeni məcəlləşdirmə işlərinin aparılması gedirdi. 30-40 il əvvəl qəbul edilmiş mühüm qanunvericilik aktlarının yeni ictimai münasibətləri tənzim edə bilməməsi və dövrün tələblərinə cavab verməməsi, müxtəlif ictimai-iqtisadi səbəblər yeni məcəlləşdirilmiş aktların tərtib edilməsi zərurətini yaratmışdı. Digər tərəfdən, yeni məcəllələrin işlənib hazırlanması texniki-hüquqi səbəblərlə də şərtlənirdi: toplanmış külli miqdarda qanunvericilik materialı müəyyən sistemləşmə tələb edirdi. İlk əvvəl – 1958-1961-ci illərdə cinayət və cinayət-prosessual qanunvericiliyinin, habelə məhkəmə quruluşu haqqında qanunvericiliyinin məcəlləşdirilməsi başa çatdırıldı. 1961-1964-cü illərdə mülki və mülki-prosessual sahər üzrə yeni məcəlləşdirilmiş aktlar qəbul edildi. Sonrakı illərdə nikah və ailə, islah-əmək, torpaq, əmək, mənzil və hüququn digər sahələri üzrə qanunvericiliyin məcəlləşdirilməsi işləri həyata keçirildi.

Həmin dövrdə qanunvericiliyin xronoloji cəhətdən sistemləşdirilməsi üzrə də müəyyən işlər aparılırdı. Bir çox hallarda müxtəlif hüquq sahələri üzrə qanunvericiliyin əsasları və respublika məcəllələri müəyyən hüquq sahəsi üzrə qüvvədə olan aktların hamısını əhatə etmirdi. Buna görə də inkorporasiya aparılarkən bir-birinə zidd olan, sonradan qəbul edilən aktlarla əhatə olunan və ya qüvvəsini itirmiş aktlar ləğv edilir, ya da dəyişdirilirdi. Bu funksiyanı respublika Ədliyyə Nazirliyi (həmin nazirliyin fəaliyyət göstərmədiyi illərdə isə Nazirlər Sovetinin nəzdindəki hüquq komissiyası) həyata keçirirdi.

Azərbaycanda respublikanın Ali Soveti tərəfindən 1964-cü il sentyabrın 11-də qəbul edilmiş Mülki Məcəllədə ümumi qaydalarla yanaşı, mülkiyyət hüququ, öhdəlik hüququ, müəlliflik hüququ, kəşf hüququ, ixtira, səmərələşdirici təklif və sənaye nümunəsi üçün hüquq, vərəsəlik hüququ, xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquq qabiliyyəti kimi hüquq institutları əks etdirilmişdi. Mülki Məcəllədə mülki qanunvericiliyin predmeti, qüvvədə olması dairəsi haqqında normalar, vətəndaşların və hüquqi şəxslərin hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti, hüquqi şəxslərin yaranması və xitamı qaydası haqqında normalar, əqdlər haqqında göstərişlər, onların qüvvədə olması şərtləri və etibarsız sayılmasının nəticələri, nümayəndəlik haqqında normalar, iddia müddətinin hesablanması haqqında normalar, dövlət mülkiyyəti haqqında müddəalarla yanaşı, vətəndaşların mülkiyyət hüququ, ümumi mülkiyyət, mülkiyyət hüququnun əmələ gəlməsi və xitamı, habelə onun mülki hüquqi müdafiəsi vasitələri (vindikasiya və neqator) haqqında normalar, öhdəliklərin əmələ gəlməsi, öhdəliklərin icrasının təmini, tələbin güzəşti və borcun köçürülməsi, öhdəliklərin xitamı və öhdəliklərin ayrı-ayrı növləri haqqında (o cümlədən mülki qanunvericilik Əsaslarında müəyyən edilməyən müqavilə və öhdəliklər haqqında) normalar, elm, ədəbiyyat və incəsənət əsərlərinin müəllif-

lərinin şəxsi və əmlak hüquqları, müəlliflik müqavilələri, habelə müəlliflik hüquqlarının mühafizəsi haqqında normalar müəyyən edilmişdi.

Ailə və nikahla bağlı yeni sistemləşdirilmiş qanunun qəbulu bu sahədəki normaların təkmilləşdirilməsinə rəvac vermiş oldu. Belə ki, 1969-cu il Nikah və Ailə Məcəlləsində yalnız VVAQ orqanlarında qeydiyyatdan keçən nikah həqiqi hesab olunurdu. Dini nikahlar etibarsız sayılır və hüquqi əhəmiyyətə malik deyildi. Nikah və ailə məcəlləsinin 15-ci maddəsinə əsasən nikah yaşı 18 yaş müəyyən edilmişdi. Müstəsna hallarda rayon və ya şəhər xalq deputatları soveti icraiyyə komitəsinin razılığı ilə nikah yaşı bir ildən çox olmayan müddətə azaldıla bilərdi. Başqa nikah münasibətində olan, ruhi xəstəlik və ya ağıldan zəiflik nəticəsində fəaliyyət qabiliyyətini itirmiş, habelə yaxın qohumluq münasibətində olan şəxslərin nikah münasibətinə daxil olmalarına qanun yol vermirdi.

Əmək münasibətləri sahəsində həm konstitusion-hüquqi normalarda, həm də onların mahiyyətindən irəli gələn cari qanunvericilik aktlarında bir sıra dəyişikliklər edilmişdi. Həmin dəyişikliklərlə növbəti və əlavə məzuniyyətlər bərpa olunmuş, müəssisələrdə gündəlik məcburi iş vaxtından əlavə işlər ləğv edilmiş, sənaye müəssisələri və tikinti təşkilatlarında işləmək üçün vətəndaşların səfərbərliyi dayandırılmışdı. 1955-ci il avqustunda yeniyetmələrin iş günü qısaldılmış, məzuniyyət müddəti isə bir təqvim ayı müəyyənləşdirilmişdi. İşəmuzd işləyən 16 yaşdan 18 yaşa qədər olan yeniyetmələrin əməyi yaşlı fəhlələrinki kimi ödənilir, lakin onlara qısaldılmış iş günü üçün əlavə haqq verilirdi. Növbəti ildə yaşı 16-dan aşağı olan şəxslərin işə qəbul edilməsi qadağan olunmuş, müstəsna hallarda həmkarlar ittifaqının yerli komitəsinin razılığı ilə 15 yaşına çatmış yeniyetmələrin işə qəbuluna yol verilmişdi. Fərdi və briqada qaydasında təhsil alan 15-16 yaşlı şagird və həmin yaşda olan fəhlə və qulluqçular üçün 4 saatlıq iş günü müəyyən edilmişdi.

1956-cı ildə müəssisə və idarələrdən özbaşına çıxıb getmək və proqul üstündə işçilərin cinayət məsuliyyəti ləğv olundu və belə pozuntulara görə intizam məsuliyyəti nəzərdə tutuldu. Həmin ilin mart ayında hamiləliyə və doğuma görə məzuniyyət müddəti müəyyən olunmuş qaydada müavinət verilməklə 77 təqvim günündən 112 təqvim gününə qədər artırılmışdı.

Qocalığa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə pensiya növlərini nəzərdə tutan 1956-cı il qanununa görə eyni vaxtda müxtəlif pensiyalar almaq hüququna malik vətəndaşların seçmə əsasında yalnız bir növ pensiya ala bilməsi müəyyənləşdirilmişdi. Dövlət pensiyasının təyin edilməsi üçün vahid meyarlar qismində yaş (kişilər üçün 60, qadınlar üçün isə 55 yaşdan etibarən), əmək stajı (kişilər üçün 25 il, qadınlar üçün 20), orta aylıq əmək haqqı çıxış edirdi. Qanun minimum və maksimum pensiya ödənişlərini müəyyən etmiş, azmaaşlı işçi kateqoriyaları üçün pensiya tarifləri qaldırılmışdı. Pensiyalardan vergi tutulmasına yol verilmirdi. Qanun işdə uzunmüddətli fa-

silə ilə əlaqədar olaraq iş stajının itirilməsini nəzərdə tutmurdu. Zəruri iş stajına malik olan işçilərin müəyyən olunmuş yaşa çatana qədər işdən əl çəkdikləri halda belə, həmin yaşa çatdığı andan etibarən pensiya almaq hüququ qanunla təsbit edilirdi.

1957-ci il yanvarında əmək şikəstliyi və ya peşə xəstəliyi nəticəsində əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinətin miqdarı artırılmışdı. Həmin müavinət iş stajından asılı olmayaraq əmək haqqının 100 faizi həcmində işçilərə, o cümlədən həmkarlar ittifaqının üzvü olmayan işçilərə verilməli idi. Stasionar müalicədə (xəstəxanada, klinikada, hospitalda, dispanserdə) olan müddətdə əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət işçilərə tam həcmdə verilməli idi.

"Əmək mübahisələrinə baxılması qaydası haqqında" 1957-ci ildə qəbul edilən Əsasnaməyə görə əmək mübahisələri komissiyaları, həmkarlar ittifaqının fabrik, zavod və yerli komitələri və xalq məhkəmələri əmək qanunvericiliyinin pozulması zəminində baş verən mübahisələrin həlli üzrə müvafiq instansiyalar hesab edilirdilər. 1958-ci ilin iyulunda həmkarlar ittifaqlarının yerli komitələrinin hüquqları genişləndirilmiş onların üzərinə müəssisə müdiriyyəti tərəfindən əmək qanunvericiliyinin və təhlükəsizlik texnikası qaydalarının yerinə yetirilməsinə, ticarət və ictimai iaşə müəssisələrinin işinə, əməyin düzgün ödənilməsinə və s. nəzarət etmək vəzifəsi qoyulmuşdu.

60-cı illərdə əmək hüquq münasibətləri ilə bağlı qəbul olunmuş normativ aktlarda bütün fəhlə və qulluqçuların əmək haqqı azaldılmadan yeddi və altı saatlıq iş gününə keçirilməsi başa çatdırılmış, iki istirahət günü ilə beşgünlük iş həftəsinə keçilmiş, müəssisə və tikintilərdə əməyin mühafiəzəsi tədbirlərinin, eləcə də kollektiv müqavilələrin hüquqi əhəmiyyətinin gücləndirilməsi ilə əlaqədar məsələlər öz əksini tapmışdı. Sonradan qəbul olunan *Əmək Qanunları Məcəlləsi* milliyyətindən və irqindən asılı olmayaraq bütün vətəndaşların əmək sahəsində hüquqlarını bərabərləşdirir, qadınlara əmək, onun ödənilməsi, istirahət və sosial təminat sahəsində kişilərlə bərabər hüquqlar verir, işçilərin əmək hüquqlarının hərtərəfli mühafizəsini nəzərdə tuturdu.

Torpaq hüquq münasibətlərinin inkişafında təbiətin mühafizəsi haqqında qanunlar və torpaq qanunvericiliyinin əsasları əhəmiyyətli yer tuturdu. 60-cı illərin əvvəlində yeraltı sərvətlərin, meşələrin, suların və s. mühafizəsi haqqında bir sıra aktlar qəbul edildi. Bundan əlavə, ümumilikdə təbiətin mühafizəsi haqqında xüsusi qanunlar qəbul olundu. Bu qanunlarla torpağın, yeraltı və yerüstü sərvətlərin, suların, meşələrin, yaşıllıqların, nadir təbiət obyektlərinin, dövlət qoruqlarının, kurort yerlərinin, təbii yaşıl sahələrin, canlı aləmin və s. mühafizəsi nəzərdə tutulurdu. Təbii sərvətlərin hüquqa zidd olaraq məhv edilməsində və ya korlanmasında bilavasitə təqsirkar olan idarə və təşkilat rəhbərləri, habelə vətəndaşlar üçün məsuliyyət müəyyən edilmişdi. Təbiətin mühafizəsində ictimai təşkilatların, geniş zəhmətkeş kütlələrin cəlb olunma-

sına xüsusi önəm verilirdi.

Kolxoz münasibətlərinin hüquqi tənzimlənməsi istiqamətindəki işlər davam etdirilirdi. 1953-cü ilin avqustunda qəbul edilən kənd təsərrüfatı vergisi haqqında yeni qanunla gəlir hesabı deyil, hektar hesabı vergi tədiyələri müəyyən olundu. Bunun da nəticəsində həm kollektiv, həm də şəxsi təsərrüfatlara qoyulan vergi prosesi yüngülləşdirildi.

1956-cı il martında kolxozçulara kənd təsərrüfatı artelinin nizamnaməsinin bir sıra müddəalarını özlərinin ümumi yığıncaqlarında dəyişdirmək və ona əlavələr etmək hüququ verildi. Həyətyanı sahələrin həcmini, şəxsi mülkiyyətdə olan heyvanların sayını, əməkgünlərin minimumunu müəyyən etmək, artelə qəbul etmək və onun üzvlüyündən xaric etmək hüquqları kolxozların özlərinə həvalə edildi. Bununla belə, nizamnamənin ümumi prinsipləri (torpaq fondunun bölünməzliyi və b.) qüvvəsini saxlayırdı.

Kolxoz hüququnda baş verən dəyişikliklər ilk növbədə istehsalın və idarəetmənin təşkili üzrə kolxozların hüquqlarının genişləndirilməsini; tədarük və ödənişlər üzrə məcburi normativlərin ləğvini; kolxoz üzvlüyünə qəbul və çıxarılma, şəxsi həyətyanı təsərrüfatların həcminin müəyyənləşdirilməsi məsələlərində "kolxoz demokratiyasının" genişləndirilməsini əhatə edirdi.

1958-ci il iyununda kolxozlar tərəfindən kənd təsərrüfatı məhsullarının məcburi tədarükü ləğv edilir və onlar dövlət sifarişləri (satınalmaları) ilə əvəz olunur, məhsulun satınalma qiymətləri yüksəldilir. Yeni sistemə görə kolxozlar öz məhsullarını ölkənin müxtəlif zonaları üzrə fərqli qiymətlərlə dövlətə satırdılar. Eyni zamanda kolxozlarda əməyin ödənilməsi prinsipində dəyişikliklər edildi: kolxozçulara aylıq avans verilməsinə və əməyin diferensial qiymətləndirilməsi (tarifləri) üzrə pul ödənişi formasına keçildi. Kolxozların böyüdülməsi, onun sənaye əsaslarının yaradılması və "şəhər və kəndin yaxınlaşması" ideologiyasına uyğun tədbirlərin həyata keçirilməsi ilə bağlı islahatlar da keçirilirdi.

Kolxozçular üçün 1959-cu ildən başlayaraq pensiyalar müəyyən edildi ki, bu da vahid pensiya təminatı sisteminin həyata keçirilməsinin başlanğıcı idi. Bununla əlaqədar 1964-cü ildə xüsusi olaraq qəbul edilmiş qanunla kolxoz üzvlərinə verilən pensiyaların və müavinətlərin xarakteristikası açıqlanırdı.

1969-cu ildə qəbul edilmiş kolxozun yeni *Nümunəvi Nizamnaməsi* kolxozların təsərrüfat müstəqilliyini və təşəbbüsünü xeyli genişləndirirdi. Nizamnaməyə görə kolxozun əsas və dövriyyə fondlarına, yəni kolxoz üzvləri arasında bölüşdürülməyən fondlara ayırmaların həcmi haqqında məsələni dövlət orqanları deyil, kolxozçuların özləri həll edirdilər. Bundan başqa, təsərrüfat fəaliyyəti planı (əkin sahələrinin həcmi, mal-qaranın miqdarı, görüləcək işlərin müddətləri və s.) yuxarıdan deyil, dövlətə kənd təsərrüfatı məhsulları satışının sabit planı əsasında kolxozun özü tərəfindən müəyyən edilirdi [2, s.471].

Kolxoz mülkiyyətinin ümumxalq mülkiyyəti ilə yaxınlaşmasının hüquqi

əsaslarının yaradılması da yenilik idi. Kolxozlar kolxozlararası və dövlət-kolxoz müəssisələri və təşkilatlarında iştirak etmək hüququ əldə etdilər ki, bu da bir kolxozun gücü çatmayan vəzifələrin həlli üçün bir sıra kolxozların və dövlət müəssisələrinin səyini birləşdirməyə imkan verirdi. Nizamnamədə təminatlı ödənişlə ictimai təsərrüfatda işləmək, kolxozların kənd təsərrüfatı istehsalına zərər vurmadan özünün əmək ehtiyatlarından və yerli xammaldan istifadə etmək əsasında yardımçı müəssisə və istehsal sahələri yaratmaq, kolxozun işlərinin idarə olunmasında fəal iştirak etmək və s. kimi hüquqlar təsbit olunmuşdu. Nümunəvi nizamnamə əsasında kolxozlar təsərrüfatlarının xüsusiyyətlərini nəzərə almaqla öz nizamnamələrini işləyib hazırlamalı idilər.

Dövlətin cinayət və cəza siyasəti çoxsaylı yenilikləri ehtiva edirdi. Cinayət Məcəlləsində ictimai əmlakın talanmasının diferensial növlərini və onlara müvafiq cəza növlərini nəzərdə tutan maddələr ləğv olunmuşdu. 1953-cü ilin martında verilən amnistiya haqqında fərmanın əsasında qəbul edilmiş normativ aktlarda bir sıra vəzifə, təsərrüfat, məişət cinayətlərinə görə nəzərdə tutulan cinayət məsuliyyətinin inzibati və intizam məsuliyyəti ilə əvəzlənməsinin əsasları müəyyən edildi. Bütövlükdə götürdükdə, cinayət hüququnun inkişafında aşağıdakı əsas istiqamətlər sırasında cinayət hüququnun ümumən “liberallaşdırılması”nı (amnistiya, ölüm cəzasının ləğvi, realibilitasiya prosesləri və s.); bir sıra cinayət tərkibləri üzrə cəzaların yumşaldılmasını, azadlıqdan məhrum etmənin maksimum müddətinin azaldılmasını; analogiya və obyektiv təqsirləndirmə prinsiplərinin ləğvini; vaxtından əvvəl şərti azadetmə qaydasının tətbiqini; qanunçuluq prinsipinin möhkəmləndirilməsini (təqsirsizsizlik prezumpsiyası, “qanunun geriyə qüvvəsi yoxdur” və s. formada) qeyd etmək olar.

1958-ci ildə qəbul olunan cinayət qanunvericiliyinin Əsasları “xalq düşməni” anlamını ləğv etdi, cinayət məsuliyyətinə cəlb olunma üçün yaş həddini artırdı, ölkə hüdudlarından çıxarılmanı, əlavə cəza tədbiri kimi seçki hüquqlarından məhrumetməni aradan qaldırdı və bir çox yeni normalar müəyyən etdi. 1960-cı il dekabrın 8-də Azərbaycanda bu sahədə sayca üçüncü məcəlləşdirilmiş akt qəbul edildi və yeni Cinayət Məcəlləsinin ümumi və xüsusi hissəslərində əvvəlki məcəllələrdən fərqli normalar öz əksini tapdı. Belə ki, burada cinayətin yeni anlayışı, dövləti cinayətlərin iki qrupa – xüsusilə təhlükəli dövləti cinayətlər və sair dövləti cinayətlərə ayrılması, əvvəllər qüvvədə olan analogiya prinsipinin ləğvi, cəzaların fərdiləşdirilməsi və cinayət məsuliyyətinin təqsirin dərəcəsi ilə əlaqəliliyi prinsipi, obyektiv təqsirləndirmə prinsipinin, yəni cəzanın təqsirlilik faktı nəzərə alınmadan (“sosial təhlükəli” hesab edilmiş şəxslərə, təqsirləndirilənin qohumlarına və s.) tətbiq edilməsinin ləğvi və s. kimi məsələlər təsbitləndi.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi 14-dən 16-ya qaldırıldı. 14 yaş həddi isə yalnız ən ağır cinayətlərin (quldurluq, zorlama və s.) törədilməsi hallarında cinayət məsuliyyətini yaradırdı. Azadlıqdan məh-

rumetmənin maksimum müddəti 25 ildən 15 ilə endirildi. Qanun törədilmiş əməlin və ya onu etmiş şəxsin "ictimai təhlükəli xarakteri" aradan qalxdığı hallarda həmin şəxsin cinayət məsuliyyətindən tam azad olunmasına yol verirdi. Məcəllə ilə "nümunəvi davranış və əməyə vicdanlı münasibət" göstərmiş məhkumların vaxtından əvvəl şərti azadetmə qaydası da müəyyən edilmişdi.

Ədalət mühakiməsinin həyata keçirilməsinin təkmilləşdirilməsi istiqamətində bir sıra hüquqi aktlar qəbul edilmişdi. 1958-ci il dekabrında qəbul edilən İttifaq və müttəfiq respublikaların cinayət mühakimə icraatının Əsasları respublikalarda yeni məcəllələrin hazırlanması üçün zəmin yaratdı. Buna uyğun olaraq 1960-cı il dekabrın 8-də qəbul edilən Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsində cinayət mühakimə icraatının vəzifələri, proses iştirakçılarının hüquq və vəzifələri, sübutetmə haqqında əsas müddəalar, cinayət törətməkdə müqəssir bilinənlərə qarşı qətiimkan tədbirlərinin tətbiqi, prosessual müddətlər və məhkəmə məsrəfləri əks etdirilmişdi.

Məcəllədə cinayət mühakimə icraatının aşağıdakı prinsipləri təsbit edilmişdi: ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir; bütün vətəndaşlar qanun və məhkəmə qarşısında bərabərdirlər; hakimlər müstəqildirlər və yalnız qanuna tabedirlər; təqsirləndirilən şəxs müdafiə hüququna malikdir; mühakimə icraatı aşkar səciyyə daşıyır; məhkəmə işlərə kollegial surətdə baxır və bütün sübutları tam həcmdə qiymətləndirir; mühakimə icraatı milli dildə aparılır. Cinayət-prosessual məcəlləyə sonradan cinayət prosesin iştirakçılarının hüquqları, xüsusən də müdafiəçilərin iştirakı, hüquq və vəzifələri ilə, həmçinin ibtidai istintaq aparılmasının şərtləri və s. məsələlərlə bağlı bir sıra dəyişikliklər və əlavələr edilmişdi.

Mülki mühakimə icraatının təkmilləşdirilməsi istiqamətində müvafiq hüquqi tədbirlər həyata keçirilmiş, bu sahədə yeni məcəlləşdirilmiş akt işlənib hazırlanmışdı. 1964-cü il sentyabrın 11-də qəbul edilən Azərbaycan SSR Mülki-Prosesual Məcəllə mülki mühakimə icraatının prinsiplərini, mülki prosesin iştirakçılarının dairəsini, mühakimə icraatının mərhələlərini, hər bir mərhələ üçün xarakterik olan prosessual hərəkətləri və münasibətləri, icraatın növlərini (iddia icraatı, inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə icraat, xüsusi icraat), beynəlxalq xüsusi hüquq məsələlərini, yəni xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin mülki prosessual hüquqlarını, əcnəbi dövlətlərə verilən iddiaları, əcnəbi məhkəmələrin məhkəmə tapşırıqları və qətnamələrini, beynəlxalq müqavilələri tənzimləyən normalardan ibarət idi. Məcəlləyə icra sənədləri üzrə tələb yönəldilə bilməyən əmlak növlərinin siyahısı və münsiflər məhkəməsi haqqında əsasnamə əlavə kimi daxil edilmişdi. Mülki mühakimə icraatı qaydasında mülki hüquq münasibətləri ilə yanaşı, ailə, əmək, kolxoz, torpaq münasibətlərindən törənən, eləcə də inzibati hüquq münasibətlərindən əmələ gəlməklə məhkəmələrin səlahiyyətlərinə aid olan mübahisələrə, xüsusi icraat işlərinə də baxılırdı.

## ƏDƏBİYYAT

1. Azərbaycan SSR Qanunları və Azərb. SSR Ali Soveti Rəyasət heyətinin Fərmanları məcmuəsi (1968-1985-ci illər). - Bakı. - 1986.
2. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. – Bakı: Elm və Təhsil, - 2023 (2015). - 588 s.
3. İsmayılov X.C. Azərbaycan Respublikasının konstitusion inkişafı. – Bakı: Elm və Təhsil, - 2024. - 416 s.
4. Məlikova M.F. Naxçıvan Muxtar Respublikasının konstitusion inkişafının bəzi aspektləri. // Bakı Universitetinin Xəbərləri. sosial-siyasi elmlər seriyası. – Bakı, - 2004. - №3. - s.5-18.
5. Uygur Coşgun. Dünden Bugüne Anayasacılık. Ankara. Hukuk gündemi. - № 2. - s.24-30.
6. Антология памятников права народов Кавказа. Правовые памятники Азербайджана. Т.19. (сост. М.Ф.Меликова. Х.Д.Исмайлов. Т.К.Зейналова). Учебное пособие. – Баку: Elm və Təhsil, - 2021. - 824 с.
7. Алиев А. Конституционное развитие Азербайджанской ССР. – Баку: - 1976. - 126 s.
8. Алиев Ш.М. Грамматика конституционализма. – Баку: Bestpack, - 2016. - 894 с.
9. Арон Р. Демократия и тоталитаризм. - Москва, - 1993 (1965), - 303 с.
10. Баев В.Г. Конституционализм как понятие и научная проблема// Юридический журнал. - 2018. - №3. - с.44-63.
11. Вагабов А.А. Конституция Азербайджанской ССР 1937 г. и ее развитие. Баку. 1968.
12. Верт Н. История Советского государства. Перевод с французского. – Москва: Инфра-Москва, - 2001. - 544 с.
13. Данилов А.А. Конституционный проект 1962—1964 гг. // Власть и общество в России. XX век. – Тамбов, - 1999. - 256 с.
14. Ешков Г.С. Укрепление политических основ советского государства. – Москва: Мысль, - 1983. - 296 с.
15. Кара-Мурза С.Г. История государства и права России. – Москва: Былина, - 2002. - 524 с.
16. Сосенков Ф.С. Конституционно-правовые принципы советского федерализма //Genesis. исторические исследования. - 2021. - № 11. - с.30-45.
17. Michel Rosenfeld, Andras Sajo, Susanne Baer, Norman Dorsen. “Comparative constitutionalism” West Academic Publishing. - 2003. - 1383 s.

## НЕКОТОРЫЕ АСПЕКТЫ ИСТОРИКО-ПРАВОВОЙ ЭВОЛЮЦИИ КОНСТИТУЦИОНАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ (50-60-е ГОДЫ XX ВЕКА)

**Х.Дж.ИСМАЙЛОВ**

### РЕЗЮМЕ

Начиная со второй половины прошлого века в общественно-политической жизни Азербайджана сложились условия для относительного оживления деятельности общественных организаций и органов государственной власти, не затрагивая при этом основных принципов существующей политической системы - однопартийности, верховенства Коммунистической партии над всеми государственными институтами. В то время доктрина «общенародного государства», сформированная в контексте идеологии «перехода к коммунистическому обществу», отражала элементы как преемственности предыдущей доктрины пролетарской диктатуры, так и нового понимания задач социальной деятельности государства и политического развития. Расширение представительства граждан в политической системе страны через Советы было связано с определенным ограничением принципа политического монизма. Многочисленные изменения в организации и

деятельности институтов власти и управления, а также судебной системы, в социально-культурной и экономической сферах неизбежно вели к обновлению конституционного законодательства. В связи с этим целью написания статьи является раскрытие сути этих изменений. В статье с использованием метода историко-сравнительного анализа и метода системного, интегративного подхода обращается внимание на процессы, происходившие на рассматриваемом историческом этапе развития конституционализма в нашей республике. При этом в контексте вступающих в новую стадию социалистических отношений исследуется содержание новых подходов к управлению обществом и государством, социально-экономические, политические и культурные права граждан, новые правовые основы конституционного законодательства в целом.

**Ключевые слова:** эволюция советского конституционализма, доктрина «общенародного государства», демократический централизм, конституционные изменения, политический монизм, гражданские права, бюрократия, номенклатурная система, коллективизм.

## SOME ASPECTS OF THE HISTORICAL AND LEGAL EVOLUTION OF CONSTITUTIONALISM IN AZERBAIJAN (50-60s OF THE 20TH CENTURY)

**Kh.J.ISMAYILOV**

### SUMMARY

Beginning in the second half of the last century, conditions have emerged in the socio-political life of Azerbaijan for a relative revival of the activities of public organizations and government bodies, without affecting the basic principles of the existing political system - the one-party system and the supremacy of the Communist Party over all state institutions. At that time, the doctrine of the “people’s state”, formed in the context of the ideology of the “transition to a communist society”, reflected elements of both the continuity of the previous doctrine of the proletarian dictatorship and a new understanding of the tasks of the social activity of the state and political development. The expansion of the representation of citizens in the country's political system through the Soviets was associated with a certain limitation of the principle of political monism. Numerous changes in the organization and activities of government and governance institutions, as well as the judicial system, in the socio-cultural and economic spheres inevitably led to the renewal of constitutional legislation. In this regard, the purpose of writing this article is to reveal the essence of these changes. The article, using the method of historical-comparative analysis and the method of systemic, integrative approach, draws attention to the processes that took place at the considered historical stage of development of constitutionalism in our republic. At the same time, in the context of socialist relations entering a new stage, the content of new approaches to the management of society and the state, the socio-economic, political and cultural rights of citizens, the new legal foundations of constitutional legislation as a whole are studied.

**Keywords:** evolution of soviet constitutionalism, doctrine of the "people's state", democratic centralism, constitutional changes, political monism, civil rights, bureaucracy, nomenklatura system, collectivism.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səmədova Ş.T.**
Süni intellekt və cinayət hüququ: məsuliyyət problemləri ............................5
**Seykenov K.K., Samatuli B.A.**
Jeti jarği – Qazaxıstan hüquq tarixini formalaşdıran
Qazax xanlığının qanunlar toplusu ................................................................21
**İsmayılov X.C.**
Azərbaycanda konstitusiyaçılığın tarixi-hüquqi təkamülünün bəzi
aspektləri (XX əsrin 50-60-cı illəri) ..............................................................34
**Məmmədov R.K.**
Ətraf mühitin mühafizəsi – dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin
zəruri şərti kimi: yumşaq hüquqdan (soft law) bərk hüquqa (hard law)
doğru inkişaf...................................................................................................55
**Nağızadə E.**
Kiberterrorçuluq – terrorçuluğun yeni forması kimi: anlayışı,
ictimai təhlükəliliyi, cinayət-hüquqi vasitələrlə mübarizə məsələləri ...........75
**Səmədov M.N.**
İnsan hüquqlarının hüquqi təminetmə üsulları ..............................................89

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İQTİSADİYYAT

**Quliyeva G.M.**
Türk dövlətləri arasında Azərbaycan: birləşdirici güc və yeni rolu...............102

## SOSİOLOGİYA

**Mikayılova N.E.**
Müasir cəmiyyətin mənəvi əsasları haqqında.................................................114

## PEDAQOGİKA

**Qasımova L.N.**
Etnopedaqogikanın tərkib hissələrindən biri olan dastanlarda
tərbiyə məsələləri............................................................................................128

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Самедова Ш.Т.**
Искусственный интеллект и уголовное право:
вопросы ответственности ....................................................................5
**Сейтенов К.К., Бектен А.С.**
Жеті жарғы – свод законов казахского ханства,
формирующий историю права Казахстана ...............................................21
**Исмайлов Х.Дж.**
Некоторые аспекты историко-правовой эволюции
конституционализма в Азербайджане (50-60-е годы XX века) ...............34
**Мамедов Р.К.**
Защита окружающей среды – как необходимое условие
международно-правовых обязательств государств:
развитие от мягкого права к жестокому праву ........................................55
**Нагизаде Э.**
Кибертерроризм-как новая форма терроризма: понятие,
общественная опасность, вопросы борьбы уголовно-правовыми
средствами.................................................................................................75
**Самедов М.Н.**
Правовые способы обеспечения прав человека.........................................89

## МЕЖДУНАРОДНЫЕ ОТНОЕНИЯ И ЭКОНОМИКА

**Гулиева Г.М.**
Азербайджан среди тюркских государств:
объединяющая сила и ее новая роль..........................................................102

## СОЦИОЛОГИЯ

**Микаилова Н.Э.**
О духовных основах современного общества ..........................................114

## ПЕДАГОГИКА

**Гасимова Л.Н.**
Провещательная проблематика в посланиях как компонент
этнопедагогики ..........................................................................................128

## CONTENTS

### LAW

**Samadova Sh.T.**
Artificial intelligence and criminal law: responsibility issues........................5
**Seitenov K.K., Bekten A.S.**
Zheti zhargy – code of laws of the Kazakh khanate shaping
the history of the law of Kazakhstan ..............................................................21
**Ismayilov Kh.J.**
Some aspects of the historical and legal evolution
of constitutionalism in Azerbaijan (50-60s of the 20th century)....................34
**Mammadov R.K.**
Environmental protection -as a necessary condition for the international
legal obligations of states: development from soft law to hard law ...............55
**Nagizade E.**
Cyberterrorism as a new form of terrorism: concept, public danger,
issues of combating criminal law means ........................................................75
**Samadov M.N.**
Legal methods for ensuring human rights ......................................................89

### POLITICAL SCIENCE AND ECONOMY

**Quliyeva G.M.**
Azerbaijan among the turkic states: a unifying force and its new role...........102

### SOCIOLOGY

**Mikayilova N.E.**
On the moral foundations of modern society .................................................114

### PEDAGOGY

**Gasimova L.N.**
Educational issues in epistles, as a component of ethnopedagogy.................128

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 09.10.2025
Formatı: 70x100 1/16. Həcmi 9,0 ç.v. Sayı 100.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bduneshrevi@bsu.edu.az
www.bsu.edu.az